**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Lənkəran Dövlət Universiteti**

Təsdiq edirəm
Tədris məsələləri üzrə prorektor v.i.e:
_____________dos. Zaur Məmmədov
"____" ______ 2025-ci il

**Fənn sillabusu**

**İxtisaslaşma:** 7007008-Aqrokimya və torpaq münbitliyinin idarə olunması, 7007008-Torpaqşünaslıq, 7007001-Kənd təsərrüfatı bitkilərinin biotexnologiyası, 7007001-Kənd təsərrüfatı bitkilərinin seleksiyası və toxumçuluğu, 7007007-Ümumi meşəçilik və meşələrin idarə olunması, 7006016-İdarəetmədə informasiya sistemləri,7006022-Kompüter sistemləri və şəbəkələri, 7006023-Qida istehsalının idarə edilməsi, 7006023-Qida təhlükəsizliyi və risklərin idarə edilməsi
**Fakültə**: Aqrar və mühəndislik (Magistratura)
**Kafedra:** Pedaqogika, psixologiya və incəsənət
**I. Fənn haqqında məlumat**:
**Fənnin adı**: S/f ***Ali məktəb pedaqogikası***
**Fənn proqramı:** *Azərbaycan Respublikası Təhsil Nazirinin 06 noyabr 2018-ci il tarixli F-745 saylı əmri ilə nəşr hüququ (qrif) verilmişdir.*
**Kodu:** MÜSF-02
**Tədris ili:** I (2025-2026) Semestr: I
**Tədris yükü.** Ümumi-120 saat. Auditoriya - 30 saat (15 saat mühazirə, 15 saat seminar)
**Tədris forması:** Əyani
**AKTS üzrə kredit:** 4 kredit
**II. Müəllim haqqında məlumat:**
**Adı, soyadı, dərəcəsi:** *ped.e.n., dos. Əliyev Afiq Xanoğlan oğlu*
**Kafedranın ünvanı**: Lənkəran ş., Ə.Məmmədov k. 19
**E-mail ünvanı:** qi.afiq1958@gmail.com
**III. Tövsiyə olunan dərsliklər və dərs vəsaitləri:**
**Əsas:**
1. N.Kazımov. Ali məktəb pedaqogikası. Bakı,1999
2. Rüstəmov, T.Dadaşova. Ali məktəb pedaqogikası. Bakı,2007
3. M.İsmixanov. R.Bəxtiyarova. Ali məktəb pedaqogikası (Mühazirə kursu). Bakı,2016
4. B.Bəşirov. Ali məktəb didaktikası. Bakı,1992
5. Ə.Əlizadə. Yeni pedaqoji təfəkkür. Bakı,2001
**Əlavə:**
6. R.Mahmudova. Ali məktəbdə tələbə müstəqil işinin imkanları və yolları.Bakı,2005
7. A.Mehrabov. Azərbaycan təhsilinin müasir problemləri. Bakı,2007
8. A.Mehrabov,Ə.Abbasov,Z.Zeynalov,R.Həsənov. Pedaqoji texnologiyalar. Bakı, 2006
9. Təhsil haqqında Azərbaycan Respublıikasının Qanunu. Bakı, 2009
**IV. Prerekvizitlər:** Fənnin tədrisi üçün öncədənbaşqa fənlərin tədris olunmasına zərurət yoxdur.
**V. Korekvizitlər:** Bu fənnin tədrisi ilə eyni vaxta başqa fənlərin də tədris olunmasına zərurət yoxdur
**VI. Fənnin təsviri və məqsədi:** Ali məktəb pedaqogikasında pedaqoji proses və pedaqoji fəaliyyətin pedaqoji-psixoloji məsələləri izah edilir, təlim fəaliyyətinin mahiyyəti; ali məktəblərdə təlimin prinsipləri, metodları və təşkili formaları, ali məktəbdə tərbiyə prosesinin təşkili xüsusiyyətləri, tələbələrin praktikası ilə əlaqədar elmi-nəzəri, didaktik materiallar çatdırılır. Kursun öyrənilməsi dairəsində magistrantlarda müasir pedaqoji texnologiyalar, elmi-tədqiqat işlərinin aparılması üzrə praktik bacarıq və vərdişlər formalaşdırılır, ali məktəbə rəhbərlik və pedaqoji nəzarət məsələlərinə aydınlıq gətirilir.
**VII Davamiyyətə verilən tələblər:**
Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.
**VIII Qiymətləndirmə:**
Tələbələrin biliyi 100 ballı sistemlə qiymətləndirilir. Bundan 50 balı tələbə semestr ərzində, 50 balı isə imtahanda toplayır. Semestr ərzində toplanan 50 bala aşağıdakılar aiddir: 20 bal seminar və laboratoriya dərslərində fəaliyyətinə görə və 30 bal kollokviumların nəticələrinə görə.
Qiymətləndirmə zamanı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarina uyğun olaraq qiymətləndirmə meyarları nəzər alınır. İmtahan biletinə bir qayda olaraq fənni əhatə edən 5 sual daxil edilir.
Qiymət meyarları aşağıdakılardır:
*-10 bal- tələbə keçilmiş material dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir.*
*-9 bal-tələbə keçilmiş material tam başa düşür, cavabı dəqiqdir və mövzunun mətnini tam aça bilir.*
*-8 bal-tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;*
*-7 bal- tələbə keçilmiş material başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir*
*-6 bal- tələbənin cavabı əsasən düzgündür.*
*-5 bal-tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir.*
*-4 bal- tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;*
*-3 bal- tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;*
*-1-2 bal- tələbənin mövzudan* qismən xəbəri var.
-0 bal- suala cavab yoxdur.

Tələbənin imtahanda topladığı balın miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin imtahan göstəriciləri semester ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunmur.
Semestr nəticəsinə görə yekun qiymətləndirmə (imtahan və imtahanaqədərki ballar əsasında)

| Ümumi balların cəmi | Qiymət (sözlə) | Hərflə |
|---|---|---|
| 91 – 100 | əla | (A) |
| 81 – 90 | çox yaxşı | (B) |
| 71 – 80 | yaxşı | (C) |
| 61 – 70 | kafi | (D) |
| 51 – 60 | qənaətbəxş | (E) |
| 51- baldan aşağı | qeyri-kafi | (F) |

**IX.Davranış qaydalarının pozulması:**
Tələbə universitetin daxili nizam-intizam qaydalarını pozduqda əsasnamədə nəzərdə tutulan qaydada tədbir görüləcək.
**X. Təqvim-mövzu planı:** 30 saat (15 saat mühazirə, 15 saat seminar).

| № | Keçilən mövzuların məzmunu | Müh. | Sem. | Tarix |
|---|---|---|---|---|
| 1 | **Mövzu.** Ali məktəb pedaqogikasının predmeti, kateqoriyaları və tədqiqat istiqamətləri<br>***Plan:*** Pedaqogika elminin predmeti və əsas kateqoriyaları. Pedaqogika elminin mənbələri. Pedaqoji elmlər sistemi. Ali məktəb pedaqogikasının vəzifələri. Ali məktəb pedaqogikasının əsas tədqiqat istiqamətləri. Əsas pedaqoji cərəyanlar.<br>***Mənbə:*** [1;2;3;4] | 2 | 2 | |
| 2 | **Mövzu.** Azərbaycan Respublikasında təhsil sistemi<br>***Plan:*** Təhsil sistemi anlayışı. Azərbaycanda ali təhsilin inkişafı. Ali məktəbin fəaliyyət istiqamətləri. Azərbaycan Respublikasının Təhsil Qanunu və təhsil sisteminin prinsiplərti. Təhsil sisteminin quruluşu. Ali təhsil sahəsində inteqrasiya. Boloniya prosesi.<br>***Mənbə:*** [2;3;5;9] | 2 | 2 | |
| 3 | **Mövzu.** Ali məktəbdə təlimin mahiyyəti, hərəkətverici qüvvələri və prinsipləri<br>***Plan:*** Ali məktəb didaktikasının əsas kateqoriyaları**.** Təlimin prosesinin mahiyyəti və hərəkətverici qüvvələri**.** Ali məktəb müəlliminin funksiyaları və ona verilən tələblər**.** Ali məktəb müəlliminin pedaqoji ustalığı**.** Ali məktəbdə təlimin prisipləri və onların səciyyəsi<br>***Mənbə:*** [1;2;4;8] | 2 | 2 | |
| 4 | **Mövzu.** Ali məktəbdə təhsilin məzmunun pedaqoji-psixoloji əsasları<br>***Plan:*** Ali məktəbdə təhsil prosesinin məzmunu. Dövlət təhsil standartları. Təhsilin məzmununu əks etdirən normativ sənədlər. Ali məktəbdə təhsilin məzmununun təkmilləşdirilməsinin elmi əsasları.<br>***Mənbə:*** [1;2;4;5] | 2 | 2 | |
| 5 | **Mövzu.** Ali məktəbdə təlim metodları və texnologiyaları<br>***Plan:*** Təlim metodunun mahiyyəti və təsnifatı. Təlim metodlarının ümumi xarakteristikası. Ali məktəbdə pedaqoji texnologiyaların təsnifatı. Problemli və fəal təlim texnologiyaları. İnkişafetdirici təlim texnologiyaları<br>***Mənbə:*** [1;2;3;7;8] | 2 | 2 | |
| 6 | **Mövzu.** Ali məktəbdə təlimin təşkili formaları.<br>Diaqnostlaşdırma və təlim nəticələrinin keyfiyyətcə qiymətləndirilməsi<br>***Plan:*** Təlimin təşkili formaları haqqında ümumi məlumat. Mühazirə. Seminar və praktik məşğələlər. Ali məktəbdə tələbə müstəqil işləri. Təlim nəticələrinin keyfiyyətcə qiymətləndirilməsi. Tələbənin biliyinin çoxballı sistemlə qiymətləndirilməsi.<br>***Mənbə:*** [1;2;3;4;7] | 2 | 2 | |
| 7 | **Mövzu.** Ali məktəbdə tərbiyə prosesi.<br>Tələbə kollektivi və şəxsiyyətlərarası münasibətlər<br>***Plan:*** Tələbə şəxsiyyəti və onun xüsusiyyətləri.<br>Pedaqoji ünsiyyətin tələbə şəxsiyyətinin formalaşmasına təsiri. Tələbə qrupu anlayışı və onun xarakteristikası. Tələbə qrupu və onun mütəxəssisə məxsus şəxsi keyfiyyətlərin formalaşmasına təsiri<br>***Mənbə:*** [2;3;7] | 2 | 2 | |
| 8 | **Mövzu.** Ali məktəbə rəhbərlik və pedaqoji nəzarət<br>***Plan:*** Ali məktəb fəaliyyətinin əsasları***.*** Ali məktəbin Elmi Şurası və rektoru<br>Fakültə dekanı və kafedra müdiri<br>***Mənbə:*** [1;2;3] | 1 | 1 | |
| | **Cəmi:** | **15s.** | **15s.** | |

**XI. Fənn üzrə tələblər, tapşırıqlar:**
Təlim nəticəsində magistrantların əldə etməli olduqları təsəvvür, bacarıq və vərdişləri:
- informasiya mənbəyi ilə işin bacarıq və vərdişi;
- elmi-tədqiqat sahəsi üzrə məqsəd və vəzifələrin, obyekt və predmetin, elmi-nəzəri və elmi-praktik araşdırmaların əhəmiyyəti, elmi hipotezin müəyyənləşdirilməsinin elmi-metodiki əsaslarının üzə çıxarılması;
- əsas amilin təhlili və ayıra bilməsi; müqayisə, ümumiləşdirmə və sistemləşdirmə; konkretləşdirmə, tənqidi yanaşma, ziddiyyətləri görmə bacarığı;
- təhliletmə bacarıq və vərdişlərinin formalaşdırılması.

Öyrənən tanış olur:
-ümumpedaqoji bacarıq və vərdişlərlə;
-müasir təlim texnologiyaları ilə;
-müasir dərsə verilən pedaqoji tələblərlə;
-təlimin təşkilinin prinsipləri, metodları və təşkili formaları ilə;
-tələbə müstəqil işlərinin formaları ilə;
-ali məktəb praktikası və elmi-tədqiqat praktikasının əsasları ilə;
-ali məktəbdə tərbiyənin sosial-pedaqoji əsasları ilə.

**XII. Fənn üzrə təlimin nəticələri:**

-Təhsilin ictimai xarakteri, təhsil və mədəniyyət, təhsilin tarixi qaynaqları, pedaqoji təhsilin yaranmasına dair bilikləri pedaqoji aspektdə şərh edir.
-Ali məktəbdə təlimin prinsip, metod və vasitələrinə dair qanunauyğunluqları bilir və bunları təlim-tərbiyə prosesində tətbiq edir.
-Didaktik metod və vasitələrin məzmununa aid pedaqoji əməyinin təşkili xüsusiyyətlərini fərqləndirir
-Ali məktəb pedaqogikasında pedaqoji proses və pedaqoji fəaliyyətin pedaqoji-psixoloji məsələlərini izah edir
-Müasir pedaqoji texnologiyalar, elmi-tədqiqat işlərinin aparılması üzrə praktik bacarıq və vərdişləri tətbiq edir.
-Tərbiyə işinin təşkilinin nəzəri əsasları haqda məlumatları təhlil edir və diaqnostikanın strukturunu müəyyən edir.
-Ali məktəbə rəhbərlik və pedaqoji nəzarət məsələlərinə aid öyrəndiklərini ümumiləşdirir və onlara münasibət bildirir.

**XIII. İmtahan sualları**

1. Pedaqogika elminin predmeti və əsas kateqoriyaları
2. Pedaqogika elminin mənbələri və pedaqoji elmlər sistemi.
3. Ali məktəb pedaqogikasının vəzifələri.
4. Ali məktəb peadqogikasının əsas tədqiqat istiqamətləri
5. Əsas pedaqoji cərəyanlar
6. Azərbaycanda ali təhsilin inkişafı.
7. Ali məktəbin fəaliyyət istiqamətləri.
8. Azərbaycan Respublikasının Təhsil Qanunu. Təhsil sisteminin prinsipləri.
9. Ali təhsil sahəsində inteqrasiya. Boloniya prosesi
10. Ali məktəb didaktikasının əsas kateqoriyaları.
11. Təlimin prosesinin mahiyyəti və hərəkətverici qüvvələri.
12. Ali məktəb müəlliminin funksiyaları və ona verilən tələblər.
13. Ali məktəb müəlliminin pedaqoji ustalığı.
14. Ali məktəbdə təlimin prisipləri və onların səciyyəsi
15. Təlimin elmilik prinsipi
16. Təlimin şüurluluq və müstəqillik prinsipi
17. Ali məktəbdə təhsil prosesinin məzmunu.
18. Təhsilin məzmununu əks etdirən normativ sənədlər.
19. Tədris planının vəzifələri
20. Təlim metodunun mahiyyəti və təsnifatı.
21. İzahlı- illüstrativ, reproduktiv və problemli şərh metodu
22. Ali məktəbdə pedaqoji texnologiyaların təsnifatı.
23. Problemli və fəal təlim texnologiyaları
24. Təlimin təşkili formaları haqqında ümumi məlumat.
25. Mühazirə və ona verilən tələblər
26. Mühazirənin qarşısında duran didaktik vəzifələr
27. Mühazirənin növləri və formaları
28. Seminar məşğələləri
29. Seminar məşğələlərinin səmərəliliyini təmin edən amillər
30. Seminar məşğələlərinin tipləri və funksiyaları
31. Təlim nəticələrinin keyfiyyətcə qiymətləndirilməsi.
32. Tələbə şəxsiyyəti və onun xüsusiyyətləri.
33. Pedaqoji ünsiyyətin tələbə şəxsiyyətinin formalaşmasına təsiri.
34. Tələbə qrupu anlayışı və onun xarakteristikası.
35. Ali məktəbə rəhbərlik və pedaqoji nəzarət

**XIV. Kollekvium sualları**

**I Kollekvium sualları**

1. Pedaqogika elminin predmeti və əsas kateqoriyaları
2. Pedaqogika elminin mənbələri və pedaqoji elmlər sistemi.
3. Ali məktəb pedaqogikasının vəzifələri.
4. Ali məktəb peadqogikasının əsas tədqiqat istiqamətləri
5. Əsas pedaqoji cərəyanlar
6. Azərbaycanda ali təhsilin inkişafı.
7. Ali məktəbin fəaliyyət istiqamətləri.
8. Azərbaycan Respublikasının Təhsil Qanunu. Təhsil sisteminin prinsipləri.
9. Ali təhsil sahəsində inteqrasiya. Boloniya prosesi.
10. Ali məktəb didaktikasının əsas kateqoriyaları.

**II Kollekvium sualları**

1. Təlimin prosesinin mahiyyəti və hərəkətverici qüvvələri.
2. Ali məktəb müəlliminin funksiyaları və ona verilən tələblər.
3. Ali məktəb müəlliminin pedaqoji ustalığı.

4. Ali məktəbdə təlimin prisipləri və onların səciyyəsi
5. Təlimin elmilik prinsipi
6. Təlimin şüurluluq və müstəqillik prinsipi
7. Ali məktəbdə təhsil prosesinin məzmunu.
8. Təhsilin məzmununu əks etdirən normativ sənədlər.
9. Tədris planının vəzifələri
10. Təlim metodunun mahiyyəti və təsnifatı

***“S/f Ali məktəb pedaqogikası” fənninin sillabusu “Birləşmiş ixtisaslar” ixtisası (proqramı) üzrə tədris planı və fənn proqramı əsasında tərtib edilmişdir. Sillabus “Pedaqogika, psixologiya və incəsənət” kafedrasının 12 sentyabr 2025-ci il tarixli iclasında (protokol №01) müzakirə edilərək təsdiq edilmişdir.***

Fənn müəllimi: dos. A.X.Əliyev

Kafedra müdiri: dos. A.X.Əliyev